*Oqtay Rza*

# Mübarək!

Xəzərin sularında
Üzən nəhəng qalasan;
Neftçiyə, balıqçıya
Daim dayaq olasan!
Sanki mənə qoşulub
“Mübarək!” deyir dəniz
Xoş gördük, “Tufan” adlı
Təzə sərhəd gəmimiz!

İstiqlal çırağımız
Ulu öndər dühası,
Möhtəşəm növrağımız -
Quruculuq dünyası;
Ali Baş Komandanın
Nitqi, xeyir-duası
“Sən ol vətən qalası!”
Minnətdarıq ona biz!
Xoş gördük, “Tufan” adlı
Təzə sərhəd gəmimiz!

Köksündə göyə qalxan
Helikopter, raket var,
Var Vətən övladının
Yaratdığı silahlar.
Ötən gün uğurunu
Təkrar etsin sabahlar!
Vəzifədə - müqəddəs,
Əqidən büllur-təmiz.
Xoş gördük, “Tufan” adlı
Təzə sərhəd gəmimiz!

Yer kürəsi dumanlı,
Ölkələr var amanlı;
Yoxa çıxıb dinc həyat.
Ordumuz qorusa da
Hər an, hər gün, hər saat,
Məramımız odur ki,
Qalmasın davadan iz!
Xoş gördük, “Tufan” adlı
Təzə sərhəd gəmimiz!